# Qəbələdə Azərbaycan Coğrafiya Cəmiyyətinin X qurultayı keçirilib

***AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun dəstəyi ilə Qəbələdə Azərbaycan Coğrafiya Cəmiyyətinin 80 illik yubileyi və X qurultayı keçirilib.***



Tədbirdə çıxış edən ACC-nin prezidenti, akademik Ramiz Məmmədov ölkədə coğrafiya elminin inkişafında əlaqələndirici və istiqamətverici rol oynayan Azərbaycan Coğrafiya Cəmiyyətinin nüfuzlu təşkilata çevrildiyini diqqətə çatdırıb. "Azərbaycan Coğrafiya Cəmiyyəti 80 ildə" mövzusunda məruzəsində akademik bu qurumun yaranma tarixi, ona rəhbərlik edən görkəmli alimlər, struktur və sahə bölmələri, prioritet istiqamətləri, beynəlxalq əlaqələri, nəşr fəaliyyəti, orta və ali məktəblərdə coğrafiyanın tədrisi, əldə edilən nailiyyətlər, ictimaiyyətlə əlaqələr, ekoturlar və s. məsələlərdən söhbət açıb. Qeyd edib ki, coğrafiyaçı



alimlərin tədqiqatları ölkə iqtisadiyyatının möhkəmləndirilməsinə və inkişafına yönəlib. Əldə edilən mühüm elmi nəticələr ölkənin müxtəlif təsərrüfat sahələrində, təbii resursların səmərəli istifadəsində, təbiəti mühafizə işlərində geniş tətbiq olunur.

Plenar iclasda "Fiziki coğrafiya elminin Azərbaycan təbiətinin öyrənilməsində nailiyyətləri, problemləri və onların cəmiyyətə çatdırılması yolları", "İnsan coğrafiyası: iqtisadi, sosial və demoqrafik tədqiqatlar, davamlı inkişafın ictimailəşməsində ACC-nin rolu", "Qlobal iqlim dəyişmələrinin Azərbaycanda təzahürlərinin əsas xüsusiyyətləri", "Xəzər dənizinin tədqiqinin müasir vəziyyəti, onun Azərbaycanın sosial-iqtisadi həyatında rolu" və digər mövzularda məruzələr dinlənilib.

Sonra mövzularla bağlı müzakirələr aparılıb, təkliflər səsləndirilib. Qurultayın əvvəlcədən iştirakçılara paylanmış qərar layihəsi təkliflər nəzərə alınmaqla ikinci oxunuşda təsdiq edilib.

Sonda təşkilati məsələlərə baxılıb. Rəyasət heyətinin 23 nəfərdən ibarət üzvü təsdiq edilib. Akademik Ramiz Məmmədov növbəti dəfə Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, dosent Məhərrəm Həsənov birinci vitse-prezident, coğrafiya elmləri doktoru Şəkər Məmmədova və coğrafiya üzrə fəlsəfə doktoru Şahin Pənahov isə vitse-prezident seçiliblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Tələbələr üçün ekskursiya təşkil olunub

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin bitkiçilik mütəxəssisi ixtisas qrupunun tələbələri "Gilan Dairy Farms" MMC-nin əkinçilik-toxumçuluq müəssisəsi və südçülük kompleksində olublar.***



Tələbələr taxıl sahələri, yem bitkilərinin əkilməsi və onlara qulluq edilməsi, cərgəarası becərmə işləri, gübrələrin saxlanması və verilməsi prosesləri ilə yaxından tanış olublar. Rayonda ilk dəfə becərilən lavanda bitkisinin xüsusiyyətləri, əkilməsi və becərilməsi üsulları haqqında iştirakçılara məlumat verilib.

Mərkəzin heyvandarlıq mütəxəssisi ixtisası qrupunun tələbələri üçün isə Azza "Aqro" QSC-yə infotur təşkil olunub. Ekskursiya zamanı tələbələr fermanın quruluşu, heyvanların yetişdirilməsi ilə tanış olub, onların qidalanma prosesini izləyiblər. Eləcə də şirkət nümayəndələri tələbələrə yemək rasionunun tərkibi və önəmi haqda məlumat veriblər.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Bilik yarışının qalibləri mükafatlandırılıb

***28 May - Respublika Günü münasibətilə Qəbələdə məktəb komandaları arasında keçirilən bilik yarışı şəhər 2 nömrəli məktəbin komandasının qələbəsi ilə başa çatıb. Şəhər 1 və 3 nömrəli məktəblərin komandaları müvafiq olaraq II və III yerləri tutublar.***

Rayon gənclər və idman idarəsinin və təhsil şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən bilik yarışının əsas məqsədi yetişməkdə olan gənc nəsli dövlətçilik, Azərbaycan tarixinə, dövlət rəmzlərinə hörmət ruhunda tərbiyə etmək, eyni zamanda, şagirdlərin intellektual səviyyəsini yüksəltmək, bilik və bacarıqlarını artırmaqdır.



Şəhər məktəblərinin IX-XI sinif şagirdlərinin iştirak etdikləri bilik yarışı Azərbaycan dili və ədəbiyyatı, tarix, riyaziyyat-həndəsə, coğrafiya, fizika, biologiya və kimya fənləri üzrə keçirilib.

Bilik yarışının qalibləri kubok və diplomlarla mükafatlandırılıb.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Almaniya nümayəndələri məcburi köçkünlərlə görüşüblər

Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyəti Qəbələdə məcburi köçkünlər üçün salınmış yaşayış massivində olub.

Qonaqlar məcburi köçkünlərlə görüşüb, burada fəaliyyət göstərən 188 yerlik məktəblə tanış olub, siniflərin birində ingilis dili dərsinin gedişini izləyiblər. Almaniyalı deputatlar məcburi köçkün ailələrindən birinin mənzilinə baş çəkərək, ailə üzvləri ilə görüşüblər.

**"Qəbələ"**

# Qəbələ haqqında videoreportaj yayıb



Özbəkistanın "Mədəniyyət və Mərifət" telekanalında Qəbələ haqqında özbək dilində videoreportaj yayılıb.

Videomaterial bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu çərçivəsində hazırlanıb.

Videoreportajda Qafqaz Albaniyasının paytaxtı olan qədim Qəbələ şəhəri, onun tarixi, mədəniyyəti, bölgənin müasir turizm potensialı haqqında məlumat verilib, rayonda fəaliyyət göstərən dövlət tarixi-bədii qoruğu və bu gün burada aparılan arxeoloji tədqiqat işləri işıqlandırılıb.

Qəbələnin şanlı tarixi haqqında müfəssəl məlumat verən çəkiliş qrupu Qəbələ Arxeologiya Mərkəzində saxlanılan eksponatları lentə alıb.

Videoreportajda ümummilli lider Heydər Əliyevin "Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi var" fikirləri diqqətə çatdırılıb.

**"Qəbələ"**

# Tələbələr turist qrupuna bələdçilik ediblər

***Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin turizm agenti ixtisası üzrə təhsil alan tələbələri "Mountain Host Azerbaijan"ın təşkil etdiyi ekoturda iştirak ediblər.***



Peşə tədris mərkəzindən verilən məlumata görə mərkəzin 3 tələbəsi peşəkar mütəxəssisin müşayiəti ilə 20-dən çox yerli və xarici vətəndaşlardan ibarət turist qrupuna bələdçilik edib. Ekoturun marşrutu Dəmiraparan çayının sahili boyunca Laza kəndinə, oradan Muçuq şəlaləsinə və geriyə–düşərgəyə olub.

**"Qəbələ"**